Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 10-11

# TARİX

## YUXARI YAŞ QRUPU

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- 1-10-cu suallar 3, 11-20-ci suallar 4, 21-30-cu suallar 5 balla qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Yarımfinal turunun nəticələrini 04.03.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Uğurlar!

TARİX- yuxarı yaş qrupu

1-ci hissə

**1. Aslandüz döyüşünün nəticələrinə aid *deyil:***
1. Abbasabad qalası rus qoşunları tərəfindən işğal olundu
2. İkinci Rusiya-Qacar müharibəsinin taleyi həll olundu
3. Abbas Mirzənin rusları Qarabağdan çıxarmaq planları həyata keçmədi
4. Lənkəran qalası ruslar tərəfindən mühasirəyə alındı

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

2. Uyğunluq ***pozulmuşdur:***
A) Albaniya ərazisindəki katakomba qəbirləri əlaqəlidir – alan tayfaları ilə
B) Xüsusi qazılmış dərin xəndəklərlə müdafiə olunurdu – Qalagah və Şortəpə
C) Binaların tikilişində yunan mədəniyyətinin izi hiss olunurdu – Mannada
D) Əhəməni dövrünə aid saray kompleksi tapılmışdır – Şəmkir rayonunda
E) Şimaldan gələn tayfaların yürüşünə qarşı inşa edilmişdi – Çıraqqala

**3. Şəki hakimliyinə aid xüsusiyyətləri müəyyən edin:**
1. Gürcü feodalları ilə birlikdə Əlincə qalasının müdafiəsinə kömək göstərmişdi
2. Elxanilər dövlətinin tənəzzülü nəticəsində daxili müstəqillik əldə etmişdi
3. XVI əsrin ortalarında mövcudluğuna son qoyulmuşdu
4. Əsası IX əsrdə Oyrat sülaləsi tərəfindən qoyulmuşdu
5. Əmir Teymur tərəfindən varlığına son qoyulmuşdu

A) 1, 3, 4
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 2, 5

**4. Uyğunluğu müəyyən edin.**
1. 2016-cı il
2. 2003-cü il
3. 2004-cü il

a) Azərbaycan muğamının UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi
b) Heydər Əliyev Fondunun təsis edilməsi
c) "Elm haqqında" qanunun qəbul edilməsi

A) 1-a, 2-b, 3-c
B) 1-b, 2-a, 3-c
C) 1-c, 2-b, 3-a
D) 1-a, 2-c, 3-b
E) 1-c, 2-a, 3-b

**5. Şah I Təhmasib xarici ticarət əlaqələrini genişləndirmək məqsədi ilə:**
A) İngilis tacirlərinin Volqa-Xəzər yolundan istifadəsini məhdudlaşdırdı
B) Ticarət müqaviləsi bağlamaq məqsədi ilə Peterburqa nümayəndə göndərdi
C) Monqol dövründən qalan tamğa vergisini ləğv etdi
D) Rusiya dövləti ilə iqtisadi və diplomatik əlaqələri gücləndirdi
E) Portuqalların Hörmüz limanını ələ keçirməsinə imkan verdi

**6. AXC-nin iqtisadi siyasətinin əsas prinsipləri idi:**
1. Dövlət mülkiyyətinin tamamilə ləğv olunması
2.Müxtəlif mülkiyyət formalarının inkişafına bərabər imkanlar yaradılması
3.Xüsusi mülkiyyətin toxunulmazlığının azad sahibkarlığın inkişafı üçün vacib hesab edilməsi
4. Bütün torpaqların milliləşdirilərək kəndlilərə paylanılması

A) 1,2
B) 2,3
C) 3,4
D) 2,4
E) 1,3

**7. Parfiya dövlətinin mövcudluğu dövründə baş vermişdir:**
A) Makedoniyalı İsgəndərin Mərkəzi Asiyaya hücumu
B) Əhəməni dövlətinin Misiri ələ keçirməsi

C) M.Trayanın Kilikiya və Ərəbistanı ələ keçirməsi

D) Afina-Sparta müharibəsinin baş verməsi

E) Şərqi Avropada İskit padşahlığının meydana gəlməsi

**8. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Çində vətəndaş müharibəsinin başa çatması
2. “Hindistanın idarəsi haqqında” qanunun qəbul edilməsi
3. Qacarlar sülaləsinin devrilməsi
4. Mançjou-Qo dövlətinin yaradılması

A) 3, 2, 1, 4
B) 2, 4, 1, 3
C) 4, 3, 2, 1
D) 1, 4, 3, 2
E) 2, 3, 4, 1

**9. Asparux xanın hakimiyyəti dövründə baş *ver-məmişdir:***

1. Bulqarlarla slavyanların nikaha girmələrinin qadağan edilməsi
2. Orta Volqaboyunda müstəqil türk dövlətinin əsasının qoyulması
3. Xristianlığın rəsmi dövlət dini elan edilməsi
4. Bizans ordusunun məğlubiyyətə uğradılması

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**10. İslam dinini qəbul edən ilk Cağatay xanı:**

A) Mübarəkşah
B) Tuğluq Teymur
C) Qazan xan
D) Özbək xan
E) Bərkə xan

2-ci hissə

**11. Hadisə - nəticə əlaqələrinin doğru göstərildiyi cavabı müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| **I** | *Xlodviqin xristian dinini qəbul etməsi* | *Xlodviqin Qalliya üzərində hakimiyyəti möhkəmləndi* |
| **II** | *German tayfalarının işğalları* | *Qərbi Avropada quldarlıq quruluşu dağıldı, feodalizm meydana gəldi* |
| **III** | *Frank imperiyasının parçalanması* | *Qərbi Avropada feodal dağınıqlığının başlanması* |
| **IV** | *Böyük Karlın Romaya yürüş etməsi* | *Müqəddəs Roma imperiyası yarandı* |
| **V** | *Karl Martellin Puatye döyüşündə ərəblərə məğlub olması* | *Bütün Pireney yarımadası ərəblərin əlinə keçdi* |

A) I, IV, V
B) I, III, V
C) I, II, III
D) I, III, IV
E) III, IV, V

**12. Roma sərkərdələri Pompey və Kanidinin fəaliyyəti üçün oxşar cəhət:**

A) Cənubi Qafqaza yürüş etmələri
B) Atropatena dövlətini asılı hala salmaları
C) Sezar ilə mübarizə aparmaları
D) Qalliyanı asılı hala salmaları
E) Selevkilər üzərində qələbə qazanmaları

**13. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:**

**Xoy xanlığı** **Qarabağ xanlığı**




a. İrəvan və Naxçıvan xanlıqlarının asılı vəziyyətə salınması

b. Daxili çəkişmələr nəticəsində zəifləyərək müstəqilliyini itirməsi

c. Gəncə xanlığında ikihakimiyyətliliyin yaradılması

d. Fətəli xan Əfşara qarşı ittifaqda iştirak etməsi

e. XIX əsrin əvvəllərində xarici siyasət hüququndan məhrum olması

A) 1-a; 2-b,c; 3-d,e

B) 1-b; 2-c,e; 3-a,d
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a,e; 2-d; 3-b,c
E) 1-b,d; 2-c,e; 3-a

**14. Hadisə-nəticə əlaqəsinin doğru göstərildiyi cavabı müəyyən edin.**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Ərzaq sapalağının ləğv olunması | Azərbaycan SSR-də YİS-ə keçidin başa çatması |
| B) | Azərbaycan İnqilab Komitəsinin vicdan azadlığı haqqında dekret verməsi | Cənubi Qafqaz Müsəlmanları Ruhani İdarəsinin yaradılması |
| C) | "Savadsızlıqla mübarizə komitəsi"nin yaradılması | Azərbaycan gənclərinin təhsil üçün xarici dövlətlərə göndərilməsi |
| D) | Sənayeləşdirmə tədbirlərinin həyata keçirilməsi | Sənaye müəssisələri üçün xarici kapitalın cəlb edilməsi |
| E) | Kollektivləşdmə tədbirlərinin həyata keçirilməsi | Kənd təsərrüfatı üzərində sərt dövlət nəzarətinin yaradılması |

**15. Rusiya Federasiyasının XX əsrin 90-cı illər tarixi üçün səciyyəvidir:**

1. Ukraynanın suverenliyinə və mövcud sərhədlərinə təminat verilməsi
2. Birinci Çeçenistan müharibəsində məğlub olması
3. Krımın Rusiyaya ilhaq edilməsi
4. V. Putinin Rusiyanın prezidenti seçilməsi
5. Muxtar vilayət və respublikalarda müstəqillik meyillərinin güclənməsi

A) 1, 2, 5
B) 2, 4, 5
C) 1, 2, 3
D) 3, 4, 5
E) 1, 3, 4

**16.**
- *Peterburq müqaviləsi*
- *Kirmanşah müqaviləsi*
- *Bağdad müqaviləsi*

**Göstərilən müqavilələrdən hər hansı birinə aid deyil:**

A) Araz çayı iki dövlət arasında sərhəd oldu
B) Rusiya Səfəvi şahına öz hakimiyyətini qorumaq üçün hərbi yardım göstərəcəkdi
C) Osmanlı dövləti son 10 ildə işğal etdiyi Səfəvi torpaqlarını geri qaytarmalı idi
D) Rusiya Kürdən cənubdakı Xəzəryanı bölgələri Səfəvilərə qaytardı
E) Dərbənddən Gilana qədər olan Xəzəryanı ərazilər Rusiyaya ilhaq edildi

**17. 1142-ci ildə Mərv və Nişapuru ələ keçirmişdi:**
A) Mahmud Qəznəvi
B) Cəlaləddin
C) Əlaəddin
D) Toğrul bəy
E) Atsız

**18. SSRİ hüquqi cəhətdən öz dövrünü başa vurdu:**
A) MDB-nin yaradılması ilə
B) Azərbaycan Respublikasında keçirilmiş müstəqillik haqqında referendumla
C) M. Qorbaçovun istefa verməsi ilə
D) Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı ilə
E) Müttəfiq respublikaların öz müstəqilliklərini elan etməsi ilə

**19. Xəritədə rəqəmlərlə göstərilmiş xanlıqların fəaliyyətinə aid oxşar cəhət *deyil*:**




A) Azərbaycanın cənub xanlıqlarının birləşdirilməsinə cəhd edilməsi
B) Rusiya ilə Kürəkçay müqaviləsinin imzalanması
C) Şamaxı xanlığı üzərinə hücum edilməsi
D) Gürcü çarı II İrakli ilə ittifaqın qurulması
E) A. M. Qacardan asılı hala düşməsi

**20. Muş döyüşündən fərqli olaraq Malatya döyüşü:**
A) Qaraqoyunlu və Ağqoyunlu dövlətləri arasında baş vermişdi
B) Ağqoyunlu dövlətinin qələbəsi ilə başa çatmışdı
C) Ağqoyunluların məğlubiyyəti ilə başa çatmışdı
D) Uzun Həsənin rəhbərlik etdiyi Ağqoyunlu ordusu qalib gəlmişdi
E) Teymuri ordusunun Azərbaycanı tərk etməsinə səbəb olmuşdu

3-cü hissə

**21. İkinci dünya müharibəsinin əvvəllərində bitərəf olan dövlətləri müəyyən edin.**




A) 1, 4
B) 2, 3
C) 4, 5
D) 1, 3
E) 2, 5

22.

- *E.ə. II əsrdən- b.e. III əsrinədək mövcud olmuşdur*
- *Sırdəryanın orta hövzələri və Qərbi Yeddisu bölgəsini əhatə edirdi*
- *Çinin Xan sülaləsinə qarşı mübarizə aparmışdır*

**Qeyd olunanların aid olduğu dövlət:**
A) Kuşan
B) Yueci
C) Eftalit
D) Kanquy
E) Selevki

**23. Xəritədə göstərilən rayona aid xüsusiyyətləri müəyyən edin.**



1. 2020-ci il dekabrın 1-də Azərbaycan Respublikasına qaytarılmalı idi
2. Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə hava limanı fəaliyyətə başladı
3. İşğal dövründə ərazisində Suriya və digər yerlərdən köçürülmüş ermənilər məskunlaşdırılmışdı
4. 2023-cü ilin aprelində ərazisində Azərbaycan sər-həd keçid məntəqəsi quruldu
5. 2021-ci ildə təşkil olunmuş Qarabağ iqtisadi rayonuna daxil idi

A) 1, 2, 3
B) 2, 4, 5
C) 1, 3, 4
D) 3, 4, 5
E) 1, 2, 5

**24. Azərbaycan Xalq Cümhuriyyətinin xəritədə nömrələnmiş şəhərlərinə aid uyğunluğu müəyyən edin:**




a) 1919-cu il yanvarında general-qubernatorluğun yaradılması

b) 1918-ci ilin iyununda paytaxta çevrilməsi

c) Araz-Türk Respublikasının yaradılması

d) 1918-ci ilin sentyabrın 15-də işğaldan azad olunması

e) 1919-cu ilin avqustunda general Həbib bəy Səlimovun komandanlığı ilə seperatçılığın qarşısını almaq üçün əməliyyat həyata keçirilməsi

A) 1-c; 2-b; 3-e
B) 1-e; 2-b; 3-c
C) 1-a,c; 2-b,d; 3-e
D) 1-c; 2-b,d; 3-e
E) 1-a,c; 2-b; 3-e

**25. Qeyd edilənlərdən neçəsi Birinci Dünya müharibəsi dövrünə aid *doğru fikirlər deyil:***

- Azərbaycanın Osmanlı, Almaniya, Rusiya və Böyük Britaniya dövlətlərinin rəqabət meydanına çevrilməsi
- Səməd bəy Mehmandarovun Petroqradın artilleriya müdafiəsinin rəisi kimi fəaliyyət göstərməsi
- İlk hərbi təyyarəçi Züleyxa Seyidməmmədovanın "Müqəddəs Georgi" ordeninə layiq görülməsi
- Ermənilər tərəfindən "Urmu bəlası" adlandırılan soyqırımın törədilməsi
- 1915-ci il iyunun 15-də Çarın fərmanı ilə Azərbaycan kəndlərində kişilərin arxa cəbhədə işlərə cəlb edilməsi
- Azərbaycanlılardan ibarət Tatar süvari alayının yaradılması

A) 3
B) 2
C) 1
D) 4
E) 5

**26. Uyğunluğu müəyyən edin:**




A) Osmanlı sultanı II Bəyazidlə dostluq münasibətləri yaratmışdı

B) Malatya döyüşündə Osmanlıları məğlub etmişdi

C) Gödək Əhməd tərəfindən hakimiyyətdən salınmışdı

D) Muş döyüşündə öldürülmüşdü

E) Samur çayı sahilində baş vermiş döyüşdə Şeyx Cüneydi məğlub etmişdi

27. **Qeyd olunanlardan neçəsi yanlışdır:**

- Qafur Məmmədov Sovet İttifaqı Qəhrəmanı adını almış ilk azərbaycanlıdır
- İsrafil Məmmədov Şimali Qafqaz uğrunda gedən döyüşlərdə göstərdiyi şücaətə görə Sovet İttifaqı Qəhrəmanı adını almışdır
- Ziba Qəniyeva ilk azərbaycanlı təyyarəçi qadınlardan olmuşdur
- Adil Quliyev düşmənin 18 təyyarəsini məhv etdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür
- Polşa uğrunda döyüşlərdə göstərdiyi şücaətə görə Ziya Bünyadov Sovet İttifaqı Qəhrəmanı adını almışdır
- Əhmədiyyə Cəbrayılov Fransanın "Hərbi Xaç" medalına layiq görülmüşdür

A) 1
B) 2
C) 5
D) 4
E) 3

**28. Eyler-Venn diaqramına əsasən uyğunluğu müəyyən edin:**




*a) Teymuriləri məğlub etməsi*

*b) Misir Məmlük sultanlığına son qoyması*

*c) İcra və məhkəmə səlahiyyətlərinə malik Senatın yaradılması*

*d) Səfəvilər dövlətinə qarşı mübarizə aparması*

*e) Çaldıran döyüşündə qələbə qazanması*

A) 1-a,b; 2-d; 3-e; 4-c

B) 1-a; 2-c; 3-b,e; 4-d

C) 1-e; 2-c; 3-b; 4-a,d

D) 1-d; 2-e; 3-b; 4-a,c

E) 1-a,e; 2-c; 3-b; 4-d

**29. XX əsrin əvvəllərində Fransa iqtisadiyyatına aid olan amilləri seçin.**

1. Kapital ixracına görə dünyada ikinci yerdə olması
2. Aviasiya və avtomobil sənayesinin inkişaf etməsi
3. Almaniyaya qarşı "revanşizm" siyasətinin aparılması
4. Sənaye məhsullarının istehsalına görə yalnız ABŞ və Almaniyadan geri qalması
5. Dünyanın maliyyə mərkəzi olması

A) 1,2,3
B) 2,5
C) 1,3,4
D) 3,4,5
E) 1,2

30. "*Qədim fars mənbələrində bu xalqların üç böyük qrupa- xaoma varqalara, tiqraxaudlara və paradarayalara bölündüyü haqqında məlumatlar var".*

**Qeyd olunan məlumatlar aiddir:**

A) Yunanlara
B) Hunlara
C) Saklara
D) Şumerlərə
E) Misirlilərə